# İstanbulun Fəthi

Dövlətin şərq və qərb istiqamətlərində genişlənməsi II Murad dövründə davam etsə də, oğlu II Mehmetin hakimiyyəti dövrü dövlətin sürətli inkişaf etdiyi bir dövr oldu.Məşhur Osmanlı hökmdarı Fateh Sultan Mehmet (1451–1481) 1453-cü ildə İstanbulu(Konstantinopol) fəth edərək Şərqi Roma (Bizans) imperiyasının mövcudluğuna son qoydu. İstanbulun işğalı ilə Osmanlı dövlətinin İslam və Türk dün ya sında nüfuzu yüksəldi. Osmanlılar Asiya və Avropa qitə lərindəki əraziləri bir ləşdirməklə Anadolu və Balkanlardakı haki miyyətlərini gücləndirdilər. Digər tərəfdən, onlar Qara dənizi Aralıq dənizi ilə birləşdirən dəniz yolunu öz nəzarətləri altına alaraq iqtisadi cəhətdən gücləndilər. Bu dövrdə II Mehmet İstanbulu dövlətin yeni paytaxtı elan etdi. O, İstanbula alimlər, incəsənət adamları və tacirləri gətirtməklə bu şəhəri mədəniyyət və ticarət mərkəzinə çevirdi. İstanbulu fəth etdiyi üçün o özünə «fəth edən» mənasını verən Fateh ləqəbi götürdü.İstanbulun fəthi Avropa tarixini də dəyişdirdi. Mühasirə zamanı istifadə olunan güclü toplarla şəhərlərin ətrafını əhatə edən və dağılmaz sayılan böyük qala divarlarının dağılacağı məlum oldu. Bunu görən Avropadakı krallar da eyni üsuldan istifadə edərək qalın qala divarları ilə əhatə olunmuş qəsrlərdə yaşayan feodalların hakimiyyətinə son verdi. Beləliklə, orta əsrlər boyu Avropada hökm sürən feodalizm rejimi çökərkən mərkəzi krallıqlar formalaşmağa başladı. İstanbulun fəthindən sonra Bizans alim lərinin bir hissəsi İstanbulu tərk edərək İtaliyaya köç etdi.Yunan və Roma sivilizasiyaları haqqında biliklərə malik olan bu insanların İtaliyaya getməsi ölkədə İntibah dövrünün başlanmasına öz təsirini göstərdi. Köhnə ticarət yollarının türklərin nəzarəti altına keçməsi avropalıları yeni yollar axtarmağa vadar etdi.Bu axtarışlar nəticəsində coğrafi kəşflər gerçəkləşdi. Ortaya çıxan

İstanbulun fəthi bu nəticələrə görə, bəzi tarixçilər İstanbulun fəthini orta əsrlərin sonu, Yeni eranın başlanğıcı hesab edirlər. Fateh Sultan Mehmet bundan sonra bir çox yeni fəthlər etdi. Belə ki, onun Yunanıstan və Trabzonu (Trapezund) işğal etməsi ilə Bizansın bərpa olunması mümkünsüz oldu. Sonralar Osmanlı dövlətinin sərhədlərinə bir sıra başqa ərazilər də qatıldı.Fateh Sultan Mehmet 1481-ci ildə özündən sonra ərazisinin sahəsi 2 milyon kv. km olan dövlət qoyub getmişdi.

III Muradın(1574–1595) hakimiyyəti dövründə bu rəqəm 20 mil yon kv. km-ə çatdı. Anadolu bütünlüklə Osmanlıların hakimiyyəti altında birləşdirildi. 600 ildən artıq bir dövr ərzində Osmanlı dövləti üç qitənin – Asiya, Avropa və Afrikanın ən önəmli ölkələrini nəzarəti altına alan qüdrətli dövlətə çevrildi. Ən qüdrətli Osmanlı hökmdarlarından biri olan Yavuz Sultan Səlim (1512–1520) dövründə Misirin və müqəddəs torpaqların alınması nəticəsində xəlifəlik Osmanlılara keçdi.Osmanlı dövləti özünün ən qüdrətli zirvəsinə Qərbdə Möhtəşəm Sultan Süleyman adı ilə də

tanınan Qanuni Sultan Süleymanın (1520–1566) hakimiyyəti dövründə çatdı. Osmanlı dövləti türk-müsəlman dövlətçiliyi ənənələri çərçivəsində inkişaf edirdi. Hökmdarlar dövlətin qurucusu olan Osman bəyin nəslindən olmalı idilər.Osmanlı hökmdarları idarəetmə gücünü Allahdan aldıqlarına inanırdılar və ölkəni onun adından idarə edirdilər. İnanclarına görə, xalq Allahın onlara bir əmanəti idi. Hökmdar hansı din və ya etnik qrupa mənsub olmasından asılı olmayaraq, bütün Osmanlı vətəndaşlarının haqlarını təmin etmək məcburiyyətində idi. Bu baxımdan Osmanlı dövləti qədim türk dövlət ənənələrini davam etdirirdi.Osmanlı hökmdarları ilk vaxtdan etibarən islam dinini yaymağa çalışırdılar. Onların fikrincə, dünyanın hər yerində sabitliyin və nizam-intizamın hökm sürdüyü bir idarəetmə sistemi qurulmalı idi. Osmanlı dövlətinin sürətlə böyüməsi və öz hökmranlığını üç qitə üzərində əsrlərlə saxlamasında onun idarə üsulunun böyük rolu vardı. Osman Qazinin öz oğlu Orxan Qaziyə nəsihəti Osmanlıların dövlət idarəetmə anlayışını əks etdirir.